Ölkə Prezidenti cənab İlham Əliyev "Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Təhsil Nazirliyinin tabeliyinə verilir.

Dövlət başçısının digər sərəncamı isə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təsdiq edilməsi haqqında" 2010-cu il 27 dekabr tarixli 1251 nömrəli və "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" 2014-cü il 24 iyul tarixli 664 nömrəli sərəncamlarda dəyişiklik edilməsi ilə bağlıdır.

Sərəncama əsasən, Təhsil Nazirliyinin strukturunda dəyişikliklər edilərək 12 regional idarə yaradılacaq.

Sərəncamlardan irəli gələn məsələlərə dair ictimaiyyətə əlavə geniş məlumat veriləcək.

https://president.az/articles/54687

https://president.az/articles/54686